**AZS EN 71-3 “Oyuncaqların təhlükəsizliyi – 3-cü Hissə: Müəyyən elementlərin miqrasiyası” dövlət standartının layihəsinə dair**
**İzahedici vərəqə**

| | |
|---|---|
| 1. İşlənməsi üçün əsas | 23 yanvar 2023-cü il tarixli 3721 saylı Sərəncamı ilə təsdiq edilmiş “Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı” |
| 2. Standartlaşdırma obyektinin xüsusiyyətləri | AZS EN 71-3 “Oyuncaqların təhlükəsizliyi – 3-cü Hissə: Müəyyən elementlərin miqrasiyası” dövlət standartının layihəsi alüminium, sürmə, arsen, barium, bor, kadmium, xrom (III), xrom (VI), kobalt, mis, qurğuşun, manqan, civə, nikel, selen, stronsium, qalay, üzvi qalay və sinkin oyuncaq materialları və oyuncaq hissələrindən miqrasiyası üçün tələbləri və sınaq metodlarını müəyyən edir.<br>Qablaşdırma materialları oyun dəyərinə malik olmadıqda oyuncağın bir hissəsi hesab edilmir.<br>Standart müəyyən elementlərin oyuncaq materiallarının aşağıdakı kateqoriyalarından miqrasiyası ilə bağlı tələbləri əhatə edir:<br>— I kateqoriya: Quru, kövrək, tozşəkilli və ya elastik materiallar;<br>— II kateqoriya: Maye və ya yapışqan materiallar;<br>— III kateqoriya: Qaşınmış materiallar.<br>Bu sənədin tələbləri əlçatanlığı, funksiyası, həcmi və ya kütləsi etibarilə uşaqların davranışlarının nəzərə alınması ilə nəzərdə tutulduğu və ya gözlənildiyi kimi istifadə edilən oyuncaq və ya oyuncağın bir hissəsinin əmilməsi, yalanması və ya udulması və ya dəri ilə uzunmüddətli təmasda olması nəticəsində yaranan hər hansı təhlükəni açıq şəkildə istisna edən oyuncaqlara və ya oyuncaq hissələrinə şamil edilmir. |
| 3. Standartın hazırlanmasının məqsədəuyğunluğunun əsaslandırılması | Hal hazırda ölkə ərazisinə idxal edilən və ya istehsal edilən 0-14 yaş arası uşaqlar üçün oyuncaqlara dair keyfiyyət və təhlükəsizlik tələblərini ehtiva edən normativ sənədlər mövcud deyildir. Bu standart “Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə |

| | |
|---|---|
| | uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı”nın Tədbirlər Planına əsasən qəbul ediləcək "Oyuncaqların təhlükəsizliyi haqqında" milli texniki reqlamentdə müəyyən edilən əsas tələblərini təmin edəcəkdir. AZS EN 71-3 “Oyuncaqların təhlükəsizliyi – 3-cü Hissə: Müəyyən elementlərin miqrasiyası” dövlət standartı üçün uşaqların həyat və ya sağlamlığına zərər vura biləcək hər hansı qəbuledilməz risklərin qarşısını alan oyuncaqların təhlükəsizliyinə dair tələblər qoyur. Bu standartın qəbul edilməsi və tətbiqi bazara çıxarılan oyuncaqların təhlükəsiz olduğuna zəmin yaradacaqdır. |
| 4. Standartların beynəlxalq təsnifat kodu – ICS | 97.200.50 – Toys (oyuncaqlar) |
| 5. Xarici iqtisadi fəaliyyətin mal nomenklaturası | 950300 – üçtəkərli velosipedlər, samokatlar, pedallı avtomobillər və təkərli analoji oyuncaqlar; kuklalar üçün uşaq arabaları, kuklalar; digər oyuncaqlar; başsındırmalar, heyvanları və ya digər canlıları (insandan başqa) təsvir edən oyuncaqlar, digər konstruktor dəstləri və düzəldilmələr üçün oyuncaqlar, yalnız insanı təsvir edən kuklalar, onların hissələri və ləvazimatları və digər |
| 6. Standart layihəsinin milli standartlaşdırma sisteminin tələblərinə uyğunluğu | AZS EN 71-3 “Oyuncaqların təhlükəsizliyi – 3-cü Hissə: Müəyyən elementlərin miqrasiyası” dövlət standartın layihəsi “Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının 17.05.2019-cu il tarixli 1587-VQ saylı Qanununun, AZS 1.2:2022 Azərbaycan Respublikasının Dövlət Standartlaşdırma Sistemi. Azərbaycan Respublikasının dövlət standartlarının işlənmə qaydaları” dövlət standartının, AZS 1.5:2022 “Azərbaycan Respublikasının Milli Standartlaşdırma Sistemi. Standartların tərtibinə, strukturuna, şərhinə, rəsmiləşdirilməsinə və məzmununa dair ümumi tələblər” dövlət standartının və “Beynəlxalq (regional) və dövlətlərarası standartların, normaların, qaydaların və tövsiyələrin Azərbaycan Respublikası ərazisində tanınması və tətbiq edilməsi Qaydalarının təsdiq edilməsi” barədə Azərbaycan |

| | |
|---|---|
| | Respublikası Prezidentinin 22 Noyabr 1998-ci il tarixli 26 saylı Fərmanının tələblərinə uyğun olaraq hazırlanmışdır. |
| 7. Standartlaşdırma üzrə texniki komitə | Müvafiq komitə yoxdur |
| 8. Layihəçi barədə məlumat | “Azərbaycan Standartlaşdırma İnstitutu” PHŞ |
| 9. Əsas normativ baza | AZS EN 71-3 “Oyuncaqların təhlükəsizliyi – 3-cü Hissə: Müəyyən elementlərin miqrasiyası” Avropa standartının autentik tərcüməsidir (IDT). |
| 10. Standart layihəsinə zidd olan standartların dəyişdirilməsi, yenidən baxılması və ya ləğvi üçün təkliflər | Bu standartın tətbiqi ölkə ərazisində tətbiq edilən hər hansı dövlət standartının ləğv edilməsinə və ya dəyişdirilməsinə səbəb olmur. |
| 11. Standart layihəsinin strukturu | Ön söz<br>Giriş<br>Tətbiq sahəsi<br>Normativ istinadlar<br>Termin və təriflər<br>Tələblər<br>İş prinsipi<br>Reagentlər və aparatlar<br>Nümunələrin götürülməsi və nümunənin hazırlanması<br>Miqrasiya metodologiyası<br>Miqrasiya məhlulunun stabilləşdirilməsi və analizi<br>Nəticələrin hesablanması<br>Sınaq protokolu<br>Əlavə A<br>Əlavə B |

| | |
|---|---|
| | Əlavə C<br>Əlavə D<br>Əlavə E<br>Əlavə F<br>Əlavə G<br>Əlavə H<br>Əlavə ZA<br>Bibliografiya |
| 12. Potensial istifadəçilər | Təsərrüfat subyektləri, sınaq laboratoriyaları, uyğunluğun qiymətləndirilməsi orqanları, nəzarət orqanları və d. |
| 13. Rəy və təkliflər üçün əlaqələndirici şəxs | Sehranə Rzayeva - Yüngül sənaye sahəsinin standartlaşdırılması şöbəsinin müdiri<br>Tel: +99412 5149603 (daxili 113)<br>sehrana.rzayeva@azstand.gov.az |